


*8-9 oktyabr 2019-cu il, Bakı*
*"Azərbaycanın ictimai-siyasi həyatında*
*Tarix fakültəsinin yeri və rolu"*
*Respublika elmi-praktik konfransı*
*Təşkilat komitəsi ilə əlaqə:* **bdu.tarix.100@gmail.com**

---

**BDU-nun və Tarix fakültəsinin 100 illik yubileyinə həsr olunmuş**

## *"Azərbaycanın ictimai-siyasi həyatında Tarix fakültəsinin yeri və rolu"*

**mövzusunda Respublika elmi-praktik konfransı**

2019-cu ilin noyabr ayında Bakı Dövlət Universitetinin, həmçinin onun ilk fakültələrindən olan Tarix fakültəsinin yaradılmasının 100-cü ili tamam olur. Bu münasibətlə Tarix fakültəsinin kollektivi 2019-cu ilin yanvar-oktyabr aylarında fakültə əməkdaşlarının təşkilatçılığı ilə bir sıra tədbirlər həyata keçirməyi planlaşdırmışdır. Müvafiq məsələlər fakültə iclaslarında müzakirə olunmuş, təşkilati işlərlə məşğul olacaq təşkilat komitəsi yaradılmışdır. Nəzərdə tutulan tədbirlərin bir hissəsi artıq həyata keçirilmişdir. Təşkilat komitəsinin qərarına əsasən yubiley tədbirləri oktyabr ayının 8-9-da "Azərbaycanın ictimai-siyasi həyatında Tarix fakültəsinin yeri və rolu" mövzusunda keçiriləcək 2 günlük respublika elmi-praktik konfransı ilə yekunlaşdırılmalıdır. Konfransda Azərbaycanın elmi və ali təhsil müəssisələrində çalışan professor-müəllim heyəti və gənc tədqiqatçılar (həmçinin bakalavriat və magistratura səviyyəsində təhsil alan tələbələr) iştirak edə bilərlər. Məruzələrin 4 dildə dinlənilməsi nəzərdə tutulur: azərbaycan, türk, rus və ingilis dillərində. Müzakirələr aşağıdakı mövzular ətrafında aparılacaq:

1. Azərbaycan xalqının milli sərvəti – Bakı Dövlət Universiteti
2. 100 yaşlı Tarix fakültəsi
3. Tarix fakültəsinin görkəmli məzunları
4. Tarix fakültəsi ideoloji mərkəz kimi
5. Tarix fakültəsinin beynəlxalq əlaqələri
6. BDU və Tarix fakültəsi tələbələrin gözü ilə.

Konfrans zamanı dinləniləcək məruzələr, aparılacaq müzakirələrdə Cümhuriyyətimizin yadigarı, Azərbaycanın ilk Universiteti Bakı Dövlət Universitetinin, həmçinin Tarix fakültəsinin yaradılması, fəaliyyəti, keçdiyi tarixi yol, bu günki vəziyyəti ilə bağlı məsələlər bir daha nəzərdən keçiriləcək, müvafiq ümumiləşmələr aparılacaq. Konfrans iştirakçısı gənc tədqiqatçılarımıza isə bir daha özlərinin elmi araşdırma bacarıqlarını yoxlamaqda, araşdırma mövzusu seçərkən diqqət etməli olduqları məsələləri müəyyənləşdirməkdə yardımçı olacağımıza, daha geniş mənada isə bir-birlərini dinləmək, müzakirələr aparmaq vərdişi əldə etmək imkanı verəcəyimizi düşünürük. Bu baxımdan keçirməyi planlaşdırdığımız tədbirin yalnız elmi deyil, həmçinin praktik əhəmiyyətinin də olacağını əminliklə qeyd edə bilərik.

***Təşkilat komitəsi***